DOI: 10.36719/AEM/2007-2020/54/42-45

**Vüsalə Rafiq qızı Qasımova**
Bakı Slavyan Universiteti
vusaleqasimova2020@gmail.com

# AZƏRBAYCAN DİLÇİLİYİNDƏ SÖZ YARADICILIĞI

***Açar sözlər:*** *söz, söz yaradıcılığı, semantik üsul, sintaktik üsul, morfoloji üsul, leksik üsul*
***Key words:*** *word, word formation, semantic method, syntactic method, morfological method, lexical method*
***Ключевые слова:*** *слово, словообразование, семантический метод, синтаксический метод, морфологический метод, лексическая метод*

## Giriş

Dilçilik elmi sürətlə inkişaf etməkdədir. Dilçilik elminin şöbələrindən biri də söz yaradıcılığıdır. Dilin sürətli inkişafında əsas rol oynayan dilin lüğət tərkibi məhz dilin zənginləşməsində, yeniləşməsində, o dildə danışan xalqın maddi və mənəvi səviyyəsinin yüksəldilməsində əsas rol oynayan amillərdən biridir. Lüğət tərkibi zəngin olan dilləri zəngin və qüdrətli dillər hesab edə bilərik. Dilin inkişafı, zənginliyi, rəngarəngliyi lüğət tərkibinin zənginliyi və çoxcəhətliliyi ilə əlaqədardır. Lüğət tərkibi özlüyündə dil üçün sözlərdən və ifadələrdən ibarət tikinti materialıdır. Xalqların iqtisadi, siyasi və mədəni həyatında baş verən dəyişikliklər, dünyada yaranan yeni istehsalat üsulları, müasir texniki tərəqqi, elmi naliyyətlər, aqrar təsərrüfatdakı əsaslı dönüş, elm, mədəniyyət, ticarət ədəbiyyatın inkişafı, ictimai yaşayış, əmək əlaqələrinin sıxlaşması, yeni ideologiyaların, İKT-nin inkişaf etdirilməsi və digər bir sıra amillərlə əlaqədar olaraq yaranan söz və söz ehtiyyatları ilə dilin lüğət tərkibinin zənginləşməsi və rəngarəngləşməsi baş verir. Lüğət tərkibinin zənginləşməsi birbaşa söz yaradıcılığı prosesi ilə əlaqədardır."Dildə "sözyaratma" məfhumunu sinxron və diaxron aspektlərdə işlətmək olar. Sinxron və diaxron söz yaradıcılığı müxtəlif məzmuna malikdir. Diaxron sözyaratmada törəmə sözlərin hansı vasitələrin köməyi ilə əmələ gəldiyi araşdırılır. Sinxron söz yaratmada isə söhbət törəmə sözlərin derivasion mənasını hansı vasitələrlə ifadə olunmasından gedir. Sinxron sözyaratma dildəki vahidlərin bir-birinə münasibətini, diaxron sözyaratma isə bir vahidin digər vahidə keçməsini öyrənir" [1, s.278]. Sözlərin strukturunu onların əmələ gəlmə üsullarını, formalarını, mənşəyini, səbəblərini, imkanlarını, vasitələrini, xüsusiyyətlərini və digər cəhətlərini öyrənən dilçilik şöbəsi söz yaradıcılığı adlanır. Başqa sözlə derivatologiya adlanan bu şöbə təqribən 1960-cı illərdən sonra müstəqil şöbə kimi formalaşmağa başlamışdır [2, s.394]. Dilin sözyaradıcılığını təmsil edən bütün qayda və qanunları, hər şeydən öncə, dilin öz tərkibinə, öz quruluş xüsusiyyətlərinə əsaslanır, onun təbiətini, quruluş xüsusiyyətlərini özündə əks etdirir.

Afad Qurbanov dillərin müasir vəziyyətini nəzərə alaraq "Ümumi dilçilik" kitabında morfoloji və sintaktik tipoloji təsnifata əsasən dünya dillərini dörd əsas tipə bölmüşdür:

1) Köksözlü dillər
2) Aqqlütinativ dillər
3) Flektiv dillər
4) İnkorporlaşan dillər

Bu dil tipləri özlərinə məxsus səciyyəvi cəhətləri ilə bir-birindən fərqlənir. Türk dilləri, o cümlədən Azərbaycan dili şəkilçilərin sözün kökünə çox bağlı olan, qrammatik məna bu və ya başqa sözdə hansı şəkilçi vasitəsilə ifadə olunursa, digər sözlərdə də şəkilçi ilə ifadə edilən, şəkilçilərin bir sözdə eyni zamanda ancaq bir vəzifə ifadə etməsi aqqlütinativ dil tipinə məxsusdur. Aqqlütinativ dillər tipində söz kökünə şəkilçi əlavə etməklə yeni söz yaratmaq və sözün formasını dəyişdirmək mümkündür.

Dilin lüğət tərkibinin zənginləşməsində dilin daxili imkanları və başqa dillərdən söz almaq mənbələri əsas rol oynayır. Buludxan Xəlilov "Müasir Azərbaycan dilinin Leksikologiyası" adlı kitabında söz və ifadələrin yaradılmasında dörd üsulu tədqiq etmişdir:

1. leksik üsul;
2. semantik üsul;
3. morfoloji üsul;
4. sintaktik üsul [2, s.394.]

Səlim Cəfərov "Azərbaycan dilində söz yaradıcılığı" və "Müasir Azərbaycan dili; Leksika" kitablarında Azərbaycan dilinin söz yaradıcılığı qaydaları əsasında yaranan yeni leksik vahidləri yəni sözləri onun öz daxili inkişaf qanunlarına əsasən üç prosesə bölündüyünü göstərmişdir:

a) Sözlərin leksik yolla əmələgəlmə prosesi;
b) Sözlərin morfoloji yolla əmələgəlmə prosesi;

c) Sözlərin sintaktik yolla əmələgəlmə prosesi [3,s.7; 4, s.135].

Nəsir Mamedov və Ağamusa Axundovun "Dilçiliyə giriş" kitabında dilin lüğət tərkibinin zənginləşməsinin birinci və əsas mənbəyini dilin daxili vəsaiti təşkil etdiyini qeyd edərək, sözlərin aşağıdakı yollarla əmələ gəldiyini göstərmişlər:

1) Leksik yolla;
2) Morfoloji yolla;
3) Sintaktik yolla;
4) Kalka yolu ilə [5, s.111]

Daim inkişafda olan dilimizdə, Azərbaycan ədəbi dili lüğət tərkibinin XVII əsr inkişafında isimlər, xüsusilə də düzəltmə isimlər əksəri özünü yeni məfhum və anlayışların düzəltmə sözlərlə adlandıraraq lüğət tərkibinə daxil olmağını göstərmişdir. Dilimizdə yalnız isimlə şəkilçilər vasitəsilə söz düzəldilməmiş, həmçinin sifət, say, əvəzlik, və feil köklərinə də şəkilçilər artırmaqla yeni sözlər yaradılmışdır.

Artıq XVIII əsrdə Azərbaycan ədəbi dilində əsaslı dəyişikliklər baş vermiş; ədəbi dilimizin ümumi inkişafında sözdüzəldici şəkilçilərin məhsuldarlaşması, onların funksiyalarının daha da genişlənməsi baş vermiş, ədəbi dilimizin lüğət tərkibinə yeni məzmun və formalı düzəltmə sözlər daxil olmuşdur. XVIII əsrdə üslubi xarakter daşıyan sözlərin müəyyən hissəsi geniş yayılmayıb konkret əsərlərdə qalsada, dildəki sözdüzəldici şəkilçilərin fəallaşmasına, onların semantik genişliyinə xeyli kömək etmişdir. XVIII əsrdə ədəbi dilimizdə söz və ifadələr üç yolla əmələ gəlmişdilər:

1. morfoloji üsul;
2. sintaktik üsul;
3. semantik üsul [7, s.74-75, 288].

Müasir Azərbaycan dilçilərin tədqiqatlarına əsaslanaraq belə qənaətə gəlmək olar ki, söz yaradıcılığında yeni söz və ifadələrin yaradılmasında iki üsul əksər dilçilər tərəfindən qəbul edilmiş və hətta onların yaranma və tədqiq tarixləri əsrlər əvvəldən başlayıb, digər üsullar isə müzakirə obyektinə çevrilmişdir. Morfoloji və sintaktik üsullar, hansıki yeni leksik vahidlərin yaradılmasında xüsusi mühüm məna kəsb edir; birincisi söz kökünə sözdüzəldici şəkilçilər artırmaqla, ikincisi isə söz kökünə yeni sözlərin artırılması ilə yeni leksik məna daşıyan sözlərin yaradilmasıdır. Növbəti tədqiqatlarda artıq semantik üslub və leksik üslubun tədqiqi başlanmış və ya onlara ehtiyac duyulmuşdur.

1. Leksik yolla sözyaradıcılığı zahirən sadə görünüb, dərin tədqiqatlara ehtiyacı olan söz düzəldilməsi prosesidir. Yeni əmələ gələn leksik vahidlər dilə ya hazır şəkildə daxil olur ya da əmələ gəlmiş yeni söz töröndiyi ilk mənşəyindən öz məzmunu, forması etibarı ilə uzaqlaşır, yenidən formalaşmış, mənada yeni məzmunlu müstəqil bir söz kimi təşəkkül tapır. Leksik yolla sözlər aşağıdakı qaydalarla əmələ gəlir:

1. Dialektlər və şivələr əsasaında;
2. Kalka üsulu hesabına;
3. Fonetik dəyişmə hesabına;
4. Düzəltmə sözlərin sadələşməsi hesabına
5. Mürəkkəb sözlərin sadələşməsi hesabına
6. Başqa dillərdən söz almaq hesabına;
7.Yeni məna kəsb etmək hesabına;
8. Bir sıra sözlərin başqa sözlərlə əvəz edilməsi hesabına

Müasir ədəbi dilimizin dialektlər və şivələr hesabına inkişafında şair və yazıçıların rolu böyükdür. Azərbaycan ədəbiyyatının görkəmli sənətkarlarından M.P.Vaqifin, M.V.Vidadinin, Q.Zakirin, M.F.Axundovun, H.Zərdabinin, S.Ə.Şirvaninin, M.Ə.Sabirin, C.Cabbarlının, S.Vurğunun, M.Hüseynin, S.Rəhim-ovun, M.İbrahimovun, İ.Əfəndiyevin, İ.Şıxlının, R.Rzanın, və başqalarının yaradıcılığındakı dialekt və şivə sözləri dilimizin lüğət tərkibinin zənginləşməsində və rəngarəngləşməsində mühüm rol oynamışdır: ilğım, boygörməsi, aranlıq, güzəm, arva, sayrışan, gavahın, kürlük etmək, kirimişcə, muştuluq, gənəşmək, umacaq, vərdənə, xama, mahlıc, budamaq, və s. Bir dildən başqa dilə hər hansı bir anlayış mexaniki olaraq gələrsə və həmin alınma söz dilin daxili imkanları hesabına tərcümə olunarsa bu kalka üsulu ilə dilimizdə sözyaratmadır. Kalka üsulu ilə söz yaratma iki sadə sözün birləşməsindən (zarabotka-əməghaqqı, peredprazdniçnıy-bayramqabağı), sadə sözlə düzəltmə sözün birləşməsindən (jeleznodorojnik-dəmiryolçu), söz birləşməsi şəklində (otkritiy urok-açıq dərs, uçastkviy vraç-sahə həkimi), düzəltmə söz şəklində (lyotçik-təyyarəçi, prizıvnik-çağırğşçı) və sərbəst tərcümə şəklində (metateza-yerdəyişmə, proteza-səsartımı) əmələ gəlir. Yeni sözlərin yaranma prosesində söz daxilində bu və ya digər səsin dəyişməsi yaxud düşməsi nəticəsində baş verən hadisə fonetik tərkibin dəyişməsi ilə sözyaratma adlanır. S.Cəfərov bu hadisənin ən çox iki müxtəlif məfhum ifadə edən omonim sözlərdə baş verdiyini ifadə edir və dilimizdə bu gün ən çox vaxtilə baş vermiş bu hadisənin izlərini tapa bildiyimizi qeyd edir: məsələn, dağ-tağ, gör-göz, uç-uc, tək-dək, və s. Yeni söz və

ifadələrin əmələ gəlməsində mühüm yerlərdən birini də düzəltmə sözlərdə söz kökünün öz müstəqilliyini itirirərək, tərkib hissələrinə ayrılmadan yeni bir söz əmələ gətirməsi prosesi tutur: qap-ı=qapı, uz-un=uzun, uzaq=uzaq, ar-ı=arı, ərg-ikən/kən/ən=ərgən və s. Müasir dilimizdə sadə sözlər kimi işlənən ancaq qədim söz qruplarında isə mürəkkəb söz formasında olan dilin lüğət tərkibinin zənginləşməsində böyük rol oynayan sözlər mürəkkəb sözlərin sadə sözlərə çevrilməsi prosesində əmələ gəlmişlər. Löğət tərkibinin əsas fondunda olan bilərzik sözünün bilək və üzük sözlərindən, karandaş sözünün karın (qarın) və daş sözlərindən əmələ gəldiyi, formalaşdığı dilçilər tərəfindən tədqiq olunmuşdur. Müasir Azərbaycan dilində son dovrlərdə siyasətin iqtisadiyyatın, ticarət maliyyə, elm və texnikanın, maarif və mədəniyyətin və başqa sahələrin inkişafı ilə müharibələrin, müstəmləkələrin, zorakılıq və ya əlaqələr nəticəsində başqa dillərin leksikası hesabına söz artımı-alınma sözlər hesabına sözyaradıcılığı da inkişaf etmişdir. Dilimizə keçən sözlər tələbata əsasən dilimizin lüğət tərkibində sabitləşərəq istifadə olunmuşdur: parlament, referendum, dotasiya, aksion, telekommunikasiya, inflyasiya, valyuta, barter, və s. Yeni məna kəsb etmək hesabına sözyaratmada isimlərin və sifətlərin fəal iştirakı ilə yaranan sözlərin çoxmənalılıqdan omonimliyə doğru inkişafı əsas rol oynayır. Burada ümumi isimlərdən xüsusi isimlərə keçmə, və ya əksinə, ümumi isimlərin ümumi isimlərə keçməsi, adverbiallaşma yolu ilə, sifətlərin substantivləşməsi yolu ilə, isimlərin atributivləşməsi yolu ilə söz yaradıcılıqları baş verir. Bir sıra sözlərin başqa sözlərlə əvəz edilməsi hesabına söz yaratmada ictimai-siyasi və mədəni əlaqələrin nəticəsində, xüsusəndə müasir dövrdə kütləvi informasiya vasitəsi ilə yeniləşmə prosesi baş verən dövrdə sözlər öz qarşılığı ilə əvəz olunur: televiziya-telegörüm, sərhəd-sınır, nömrə-say, inam-inanc, şərh etmək-açıqlamaq, və s.

2. Semantik yolla sözyaratma. Bu söz yaratma prosesində sözün semantik cəhətdən strukturunun yəni sözün məna etibarı ilə müxtəlif vəziyyətlərdən çıxış etməsini izah edir. Mənanın genişlənməsi hesabına sözyaratmada sözlər öz ilkin mənalarını saxlamaqla yeni mənalar da qazanır və mənaca genişlənmiş olur: ailə sözü ilkin mənasını saxlamış həmçinində ziyalı ailəsi, fəhlə ailəsi, və s. Mənalarda işlənməklə öz ilkin mənasını genişləndirmişdir. Mənanın konkretləşməsi hesabına semantik yolla sözyaratmada isə sözlər ümumi məna bildirməkdən konkret məna bildirməyə doğru inkişaf edir, söz birləşmələrinin tərkibində işlənməklə konkret mənalar yaradır: rəhbər- elmi rəhbər, müəssisə rəhbəri, rayon rəhbəri, və s. Çoxmənalı sözlər hesabına semantik yolla sözyaratma bir qism sözlər çoxmənalılığa doğru inkişaf edir, məcazlaşır nəticədə çoxmənalılıq yaradır: göz-insanın gözü, bulağın gözü, şkafın gözü, və s.

3. Morfoloji yolla sözyaradıcılığı sözyaradıcılığının əsas üsullarından birincisi və dildə daha çox əhəmiyyət daşıyan, sözyaratmada xüsusi yerə sahib olan, Müasir Azərbaycan dilinin lüğət tərkibinin də zənginləşməsində vacib mövqe tutan üsul hesab oluna bilər. Dilin məna, leksik-semantik, fonetik-morfoloji və qrammatik cəhətdən bütövlüyə sahib olan əsas dil vahidlərindən biri sözdür. XIX əsrin 80-ci illərində Boduen de Kurtene tərəfindən dilçiliyə gətirilmiş morfem isə sözün ən qısa struktur hissəsi kimi müəyyən leksik-qrammatik məna daşıyır. Morfem sözün minimal, bölünməyən mənalı, mütəqil olmayan hissəsidir. Sözün ayrılıqda işlənən, müstəqil məna ifadə edən hissəsi kök, sözün ayrılıqda işlənməyən və leksik məna bildirməyən hissəsi affiksial morfem adlanır. Morfoloji yolla söz yaradıcılığı prosesində iştirak edən şəkilçilərin ümumi cəhətlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar: 1) leksik və ya qrammatikliyi; 2) məhsuldarlığı və qeyriməhsuldarlığı; 3)törəmə yolları; 4) fonetik xüsusiyyətləri; 5) məna ardıcıllığı. [3, s.154] Affiksial morfemlər derivativ və relyativ mənalı yəni sözdüzəldici və sözdəyişdirici şəkilçilər olaraq iki yerə bölünür: postfikslər, prefikslər, infikslər.

4. Sintaktik yolla sözyaratma. Son iyirmi il ərzində xeyli tədqiq olunmuş, inkişaf edib zənginləşmiş sintaktik yolla sözyaratma sözyaradıcılığında məhsuldar sözyaratmaya çevrilmişdir. Burada ən azı iki sözün birləşməsi və məna etibarı ilə adabtasiya olunmasıdır. Funksiyaya görə sintaktik yolla sözyaradıcılığında mürəkkəb sözün əmələ gəlməsində əşyanın daşıdığı funksiya mühüm yer tutur: aşsüzən, tozsoran, yerqazan, əlüzyuyan, cıdırdüzü, və s. Əlamətə görə sintaktik yolla sözyaradıcılığında mürəkkəb sözün əmələ gəlməsində əşyanın daşıdığı əlamət mühüm rol oynayır: qaragöz, istiot, günbatan, və s. Bənzətməyə görə sintaktik yolla sözyaradıcılığında mürəkkəb sözlərin əmələ gəlməsində əşyanın, predmetin bənzədilməsi əsas götürülür: itburnu, daşarmud, şirindil, və s. Mənsubiyyətə görə sözyaratmada mürəkkəb sözlər mənsubiyyət əsasında yaranır: gecə quşu, ayyaqabı, əmidostu, və s.

Sözyaradıcılığının sözyaratma üsulları ilə Müasir Azərbaycan dilinin lüğət tərkibi zənginləşməyə və rəngarəngləşməyə davam edir.

## Ədəbiyyat

1.Həsənov Həsrətli, Müasir Azərbaycan dilinin leksikası, Bakı "Maarif", 1987, 308 səh.
2.Buludxan Xəlilov, "Müasir Azərbaycan dilinin Leksikologiyası" Bakı "Nurlan" nəşriyyatı, 2008, 442 səh.
3. Səlim Əbdüllətifoğlu Cəfərov, Azərbaycan dilində söz yaradıcılığı, Bakı, ADU nəşriyyatı, 1960, 204 səh.